# SƏMƏD VURĞUN... VƏ SƏMƏDOĞLULAR

Müasir Azərbaycan ədəbi-ictimai təfəkküründə bütün miqyası, parlaqlığı ilə ortada (və diqqət mərkəzində) olan bir kult var - Səməd Vurğun kultu!.. Keçən əsrin ortalarında meydana çıxan bu kultun yaranmasının ən azı üç səbəbi barədə ayrıca danışmaq olar...

Birincisi o idi ki, Səməd Vurğun Allahın bütün dövrlər və zamanlar üçün yetirdiyi nadir istedad idi.

İkincisi o idi ki, Səməd Vurğun yalnız fərdi istedad təzahürü olaraq meydana çıxmadı, eyni zamanda özünəqədərki ədəbi-mədəni prosesi (sələflərini) tam gücü ilə mənimsəyib eyni miqyası gələcəyə (xələflərinə!) ötürə bildi.

Və üçüncüsü (həmişə olduğu kimi) o oldu ki, Azərbaycan cəmiyyəti, etnik-mədəni sistemi öz təbii intellektual-psixoloji inersiyası ilə Allahın (eləcə də Səməd Vurğunun) missiyasına lazımi hörmət (və ehtiram) ilə yanaşdı.

Əlbəttə, müasir dövrün ən böyük Azərbaycan şairinə elə azərbaycanlılar arasında daş atanlar da oldu ki, bu da təsadüfi, yaxud yeni bir şey deyil. Vaxtilə Peyğəmbərə də daş atırdılar... Sevənləri isə əməlli-başlı daş-qalaq edirdilər...

Səməd Vurğunun ruhunu incitmək əlbəttə, günahdır, ancaq Səməd Vurğun kultunun müzakirə mövzusu olması tamamilə təbiidir. Çünki demokratizmə, hər bir insanın fikrinə, mövqeyinə hörmət olunduğu müasir dünyada heç nə müzakirəsiz qəbul edilə bilməz. Hətta həkimlərin hesablamasına görə, bu gün insanların təxminən beşdən biri psixi xəstəlikdən əziyyət çəksə belə...

Müzakirə mövzusu nə ola bilər?..

Ən populyarından (və ən populistindən!) başlayaq...

Necə oldu ki, Səməd Vurğun 30-cu illərin repressiyalarından sağ çıxdı?

...Vallah, o cür ki, Səməd Vurğun sağ çıxmışdı, sevincini heç kim heç kimə gərək arzulamasın.

Dahi şairi millətçi yox, kommunist olmaqda günahlandırırlar... Bu cür "günahlandırma"ya isə el arasında "ağzına gücü çatmamaq" deyirlər.

Əvvəla ona görə ki, kommunizm təbii halında, hələ də dünyanın (bəşəriyyətin) perspektiv təfəkkür aktivində mütərəqqi bir məfkurə "kabus"u (K. Marks) olaraq zəif deyil. O da ola ki, keçən əsrin 20-ci, 30-cu, 40-cı və s. illərində...

İkincisi, Səməd Vurğun necə böyük kommunist idi ki, Azərbaycan "kommunistlərinin lideri" Mir Cəfər Bağırov ona yaradıcılığının kamil dövründə "son kommunizmi öyrənməyə onun əlifbasından başlamalısan" demişdi?

XX əsrin sonu XXI əsrin əvvəllərində dahi şairə qarşı olan qeyri-obyektiv hücumlar, heç də təsadüfi deyil ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevi də narahat etmişdi. Və o, Səməd Vurğunun nəinki "hücuma layiq, hətta müdafiəyə də möhtac olmadığını" demişdi...

Dahilər, müxtəlif dövrlərdə yaşasalar da, bir-birini yaxşı başa düşürlər...

Və Səməd Vurğun bu dünyaya həm də üç istedadlı övlad bəxş edib getdi: Yusif Səmədoğlu, Vaqif Səmədoğlu və Aybəniz Səməd qızı.

Səmədoğluların biri nəsr yazdı, ikincisi şeir... Səməd qızı nə şeir yazdı, nə də nəsr, ancaq anası Xavər xanımla birlikdə Səməd Vurğun ocağının alovunun daha gur yanmasına, istisinin daha çox olmasına çalışdı. Və dahi bir insanın övladı olmaq missiyasını ləyaqətlə yerinə yetirdi.

Aybəniz xanımın vəfatından sonra Səməd Vurğun evinin işığını onun qızı - şairin nəvəsi, Yusif və Vaqif Səmədoğluların bacısı qızı Aygün xanım yandırdı. O Aygün xanım ki, babasından çox nənəsinin nüfuzunu qoruyurdu.

...Bir dəfə Təhsil Nazirliyindən mənə zəng elədilər ki, orta məktəbin "Ədəbiyyat" dərsliyində Səməd Vurğunun tərcümeyi-halı verilərkən onun gənclik illərində guya Dürrə adlı bir qıza aşiq

olduğu, ona çoxlu şeirlər həsr etdiyi barədə yazılıb, elə şey olmayıb, xahiş edirik, düzəldəsiniz... Soruşdum ki, bizim dərsliyə bu tənqidi qeyd edən "mütəfəkkir" kim idi?.. Dedilər ki, şairin nəvəsi, ev muzeyinin müdiri Aygün xanım...

Üstünü vurmadım... "Narahat olmayın, baxarıq" dedim...

Az keçmədi ki, rəhmətlik Aygünün özü zəng elədi. Və həyəcanla: "Nizami müəllim, hər adamın gənclik illərində səhvləri olur, onu xüsusi qabartmağa nə ehtiyay var? Əgər Səməd Vurğun Xavər xanımı sevib alıbsa, ona bu qədər şeirlər yazıbsa, Dürrə söhbətini yada salmağa nə ehtiyac var?.. Xahiş edirəm o adı dərslikdən çıxarın... Təhsil Nazirliyindən rəsmi xahiş elədim, dedilər, müəllif sizsiniz... Ona görə də..."

Xətrini çox istədiyim (və dostum Mehmanın həyat yoldaşı olan) Aygünün sözünü kəsdim: «Aygün, Dürrə - Səməd Vurğun yaradıcılığının birinci dövrünün əsas qəhrəmanıdır... Bu gün də aşıqlar xalq şairi Nəriman Həsənzadənin sözlərini, demək olar ki, hər məclisdə oxuyurlar...»

Bura Dilcan dərəsi-di,
Bizim dağlar qabaqdadı.
Vurğun - Dürrə əhvalatı
Hələ dildə- dodaqdadı.

Çörəkli biz tərəflər,
Süfrəsinə nə var düzər...

İndi da Aygün xanım mənim sözümü kəsdi. Və dedi ki, «Babam onu almadı ki... Nənəmi aldı... Xahiş edirəm, məni başa düşəsiz... Bu Dürrə söhbəti heç rəhmətlik nənəmin də xoşuna gəlmirdi»...

Söhbət uzandı. Mən Aygünü haradasa başa düşdüm, ancaq o məni - dərslik müəllifini heç cür başa düşə bilmədi ki, bilmədi...

Allah bu gözəl, mehriban, ailə ocağının "tarixi namusu" üçün belə mücadilə aparmağa həmişə hazır olan xanıma rəhmət eləsin!

Bu gün Səməd Vurğun evinin işığını onun gəlini Nüşabə xanım yandırır. Vaqif Səmədoğlunun həyat yoldaşı...

Aybəniz xanım atasını qarşı olan haqsız hücumların qarşısını almağa müəyyən cəhdlər etsə də, nəticə etibarilə, deyirdi ki, Səməd Vurğun təkcə mənim atam deyil, bütövlükdə Azərbaycan xalqına mənsubdur. Ona görə çox da narahat olmuram, ancaq hərdən elə şeylər deyirlər ki, sadəcə, dözə bilmirəm...

Yusif və Vaqif Səmədoğlular həmin məsələdə ümumiyyətlə, təmkinli, hətta bəzilərinin fikrincə, kifayət qədər laqeyd görünürdülər. Ancaq bu, tamamilə təbii idi. yüksək intellektə malik övladlar bütün dərinliyilə bilirdilər ki, min illik Azərbaycan poeziyasının «El bilir ki, sən mənimsən»lə başlayan ən populyar misralarını qələmə almış bir şair-mütəfəkkirə «hücum» edənlərin cavabını xalqın özü verəcək.

Nə Yusif, nə də Vaqif Səmədoğlular dahi atalarını təkrar etmədilər, onun kifayət qədər geniş kölgəsinə sığınmadılar. Hətta elə bil, kimsə bunu məhz belə qiymətləndirə bilər deyə, bir az da uzaqda dayandılar. Ürəklərində, daxili dünyalarında atalarına nə qədər yaxın, məhrəm olsalar da, onunla (və onun böyüklüyü ilə) nə qədər fəxr eləsələr də, bunu büruzə verməməyə çalışdılar. Və atalarına layiq böyük şəxsiyyətlər oldular...

Səməd Vurğun fundamentalizm dövrünün - bir neçə insanı seçib böyüdən (ya rəyasət kürsüsünə, ya da dar ağacının kötüyünə çıxana qədər yaxasından əl çəkməyən) bir dövrün ziyalısı idi. Yusif və Vaqif Səmədoğluların yaradıcılığı, ictimai-ideoloji fəaliyyətləri əvvəl qismən, sonra isə xeyli dərəcədə demokratizm dövrünə düşdü.

Səməd Vurğun əsildən-kökdən gələn bəy aristokratizmindən zahirən imtina eləməyə məcbur olsa da, daxilində (ruhundat!) bu inersiya, təbii olaraq, çox güclü idi. Nədən yazırsa-yazsın, hər misrasında bəylik (aristokratizm!) bütün miqyası ilə təzahür edirdi...

O, kürsüyə sinə gərdi, danışmadı süst bir dəm,
Çatıb qara qaşlarını fikrə getdi o bir anlıq.
Bəzən dilsiz bir sükutla qəlbə çökür qəhrəmanlıq,
Qarşısında boyun bükür, səcdə qılır bütün aləm.

Səməd Vurğun bu sözləri kölə-zənci üçün deyir, ancaq bəy - aristokrat ədası (və intonasiyası!) ilə deyir.

Səməd Vurğunun oğulları (Yusif və Vaqif Səmədoğlular) da nə sözdə, nə də işdə atalarından geri qalmadılar.

Və heç də təsadüfi deyil ki, bu gün Bakıda Fəxri xiyabanda yalnız bir ailədən üç böyük şəxsiyyət uyuyur... Səməd Vurğun, Yusif və Vaqif Səmədoğlular...

**Nizami Cəfərov,**
**akademik**